**Osmanlı imperiyasının mövcud olduğu 623 il ərzində qeyri-məhdud hakimiyyətə malik olan otuz altı sultan idarə edibdir. Onların arasında, əlbəttə, uğurluları, tarixdə böyük iz qoyanları və uğursuz taleləri və idarəçilikləri ilə "fərqlənən"ləri olubdur. Biz "Xalq qəzeti" olaraq, qardaş ölkənin və dünyanın tarixində mühüm rolu olan Osmanlı sultanlarının həyat və fəaliyyəti barədə vaxtaşırı yazılar dərc etməyi qərara almışıq.**

# Osmanlı imperiyasının qurucusu Osman Qazi

Məlumdur ki, hər şeyin bir ilki, başlanğıcı olur. Yarandığı dövrdən bir müddət sonra tarixin ən güclü imperiyalarından birinə çevrilən Osmanlının ilk rəhbəri, qurucusu I Osman Qazi olubdur. Bu görkəmli tarixi şəxsiyyət 1299-1324-cü illər arası möhtəşəm Osmanlı xanədanını qurub, ərazilərini genişləndirib və gücləndiribdir.

I Osman Qazi 1258-ci ildə Anadoludakı Söyüd kəndində anadan olub. O, Osmanlı bəylərbəyliyinin müstəqilliyini elan etdiyi ilk gündən ölkəsinin sərhədlərini Bizansın Kiçik Asiyadakı əraziləri hesabına əhəmiyyətli dərəcədə genişləndirməyə çalışıb və buna lası, Orxaneli (Atarnos) və Ulubat gölünün içində yerləşən Alyos adası osmanlıların əlinə keçdi.

Bafeus döyüşü nəticəsində Bizans imperatoru Osmanlını və digər türkmən bəyliklərini Qərbi Anadoludan çıxarmaq siyasətinə başlamağa qərar verir. İmperator türkləri cəzalandırmaq üçün Aralıq dənizində etdiyi talanlarla məşhurlaşmış Roger de Flor və onun tabeliyində olan muzdlu döyüşçüləri Konstantinopola dəvət etdi. Çoxu katalonlardan ibarət olduğu üçün Katalon birliyi adlanan bu muzdlu əsgərlər ailələri ilə birlikdə 1302-ci il sentyabrın 1-də Bizans ərazisindəki

qısa müddət ərzində müvəffəq ola bilib. I Osmanın rəhbərliyi altında yeni dövlətin əsas idarəetmə orqanları yaradılıb.

Osman bəy hakimiyyətdə olduğu ilk illərdə bölgədə ipəkçilik mərkəzi olan Biləciyi ələ keçirib. Bundan sonra onun ikinci əhəmiyyətli uğuru Körpühisara nəzarəti təmin etməsi olubdur.

I Osmanın iradəsilə 1301-ci ildə İznik gölünün şərqində yerləşən Bizansın Nikeya şəhərinin qərbində əhalisi türklərdən ibarət Yenişəhər qurulmuşdur. I Osman bəy Yenişəhəri ölkəsinin mərkəzinə çevirmişdir.

Osman bəy həyatda çox cəsur, qorxmaz və mərd insan olub. O, ən ağır döyüşlərdə şəxsən iştirak edib, dəfələrlə yaralanıb. Buna görə xalq ona qazi ləqəbi verib. Osman bəy həm də gözəl natiq idi, hər savaşdan əvvəl ordusu qarşısına çıxaraq əsgərlərə müraciət edirdi.

Osman bəy ələ keçirdiyi ərazilərindən Oğuz bəylərinə və silahdaşlarına böyük torpaqlar hədiyyə edirdi. Əskişəhər qardaşı Gündüz bəyə, Qaracahisar oğlu Orxan bəyə, Yarhisar Həsən Alpa, İnəgöl isə Turqut Alpa verilmişdir.

Bizans imperatoru II Andronik türk bəyliklərinin getdikcə artan qüdrətindən qorxuya düşmüşdü. 1302-ci ildə imperatorluq vəzifəsini bölüşdüyü Mixailin komandanlıq etdiyi Bizans ordusu indiki Gərməncik qəsəbəsi yaxınlarında olan bir türk ordusuna məğlub oldu və əsgərlər əsir düşməmək üçün döyüş meydanından qaçmışdılar.

Bundan bir neçə həftə keçdikdən sonra, 17 iyun 1302-ci ildə Bizansın Bursa, Orxaneli (Atarnos), Kite, Kestel hakimlərinin orduları Konstantinopoldan gəmilərlə göndərilən muzdlu hərbi qüvvələrlə birləşərək, Osman Qazi ilə qarşı-qarşıya gəlmişdir. Onlar Osman bəyin ələ keçirdiyi Nikeya (İznik) şəhərini geri almaq üçün Yalakova istiqamətindən irəliləməyə başlayıbar.

I Osman Qazi Bizans əsgərlərinin sahilə çıxması xəbərini eşidən kimi, rəqibin cənuba, İznikə doğru irəliləməsinin qarşısını almağı qərara alıb. Osman bəy suvari ordusu ilə sürətlə hərəkət edərək gözlənilmədən Yalakovaya gəlibdir.

Bizans əsgərləri həmin ağır toqquşmada məğlub olublar və nizamsız şəkildə geri çəkilməyə başlayıblar. Türklər onları təqib edərək ağır itkilərə məruz qoyub. Nəticədə Bizans qüvvələri Nikomediya (İzmit) şəhərinə doğru qaçmağa başlayıblar.

Bir çox tarixçilərin fikrincə, Osmanlı bəylərbəyliyinin dövlət kimi əsasının qoyulması məhz 1302-ci ildə Yalakova yaxınlarında baş verən Bafeus döyüşündə qazanılan qələbədən sonra olmuşdur.

Bu döyüş Yalovanın Hersoq kəndi yaxınlığında baş vermişdi. Savaşda Osmanlı tərəfdən Osman bəyin qardaşı oğlu Aydoğdu bəy şəhid olmuşdur. Bafeus döyüşü Bizansın nizami ordusu ilə osmanlılar arasında baş verən ilk böyük döyüşdür.

Bu döyüşdən sonra Mərmərə dənizinin cənub sahilləri Osman bəyin hücumları qarşısında müdafiəsiz qaldı. Həmin il Kite qa-



Haliçə gəlib çıxdılar.

Bizans imperatoru II Andronik Katalon birliyinin özünə sadiqliyini artırmaq üçün qızını Roger de Flora ərə verdi. R.de Flor Qapıdağ yarımadasındakı önəmli Kzykus şəhərini mühasirəyə alan Karəsi bəyliyinin qüvvələrini ağır məğlubiyyətə uğratdı. Sonra Alaşəhərə keçərək oranı mühasirəyə alan Qaramanoğulları bəyliyinin qüvvələrini geri çəkilməyə məcbur etdi. Katalon bölüyü sonra Konstantinopola getdi, Roger de Flor 1305-ci ildə burada sui-qəsd nəticəsində öldürüldü.

1308-ci ildə türklərin Bizans şəhərləri üzərinə yeni yürüşləri başladı. İlk olaraq İznik-İzmit yolu üzərində yerləşən Trikokiya (Qarahisar) ələ keçirildi. 1313-cü ildə Osman bəyə çox köməyi dəyən Bizansın Harmanqaya hakimi Mixail Köşes islamı qəbul etdi və Köse Mikayıl adını alaraq Bizans əleyhinə hərbi yürüşlərə qoşuldu. 1313–1315-ci illərdə Sakarya çayı boyunca yerləşən Lefke, Mekece, Ağhisar, Geyve, Gölbazarı və Ləbləbiçi qalaları ələ keçirildi.

Bu fəthlərdən sonra Osmanlı məmləkətinin ərazisinin daha da böyüməsi üçün Bursa şəhərinin ələ keçirilməsi tələb olunurdu. Osman bəy Bursanı uzun müddət mühasirədə saxlamaqla təslim olmağa vadar etməyə çalışdı. Şəhər bir müddət sonra təslim oldu və Osmanlının paytaxtı elan edildi.

Bundan sonra Osman Qazi ölkəsinin idarəçiliyi və ordunun daha da gücləndirilməsi ilə məşğul oldu. Ömrünün son illərində qocalığı və tutulduğu podaqra xəstəliyi səbəbindən bəyliyin idarə olunmasını böyük oğlu Orxana tapşırdı. I Osman Qazi 1324-cü ildə dünyasını dəyişdi.

I Osmanın harada öldüyü və dəfn olunduğu dəqiq məlum deyil. Onun anadan olduğu Söyüddə torpağa tapşırıldığı ehtimal olunur. Bəzi tarixçilər iddia edirlər ki, sultan Bursada dəfn olunub. Bütün hallarda ilk Osmanlı sultanı tarixə adını böyük hərflərlə yazdıran sərkərdə və dövlət xadimidir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***